AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ELM TARİXİ İNSTİTUTU

# QARABAĞ

## TARİXİNİN AKTUAL PROBLEMLƏRİ

(MƏQALƏLƏR TOPLUSU)

BAKI - 2021

## Mündəricat


| | | |
|---|---|---|
| M.H.Seyidbəyli | 44 günlük müharibədə Azərbaycan diasporunun fəaliyyəti | s 4 |
| Z.B. Əliyev | Erməni kilsəsi | s 17 |
| B. N.Quliyev | Düşmən işğalından azad olan Qarabağ abidələri və onların bərpası metodları | s 52 |
| Z.C.Əmrahov | Çarizmin işğal siyasətinin Azərbaycanın inzibati-ərazi quruluşunda əksi rusdilli mənbələrdə (İrəvan quberniyası nümunəsində) | s 65 |
| E.R.Quliyev | Dağlıq Qarabağ münaqişəsində ermənilər tərəfindən məhv edilmiş maddi və mənəvi mədəniyyət | s 82 |
| Z.Ə.Məmmədov | Dağlıq Qarabağ münaqişəsi beynəlxalq təşkilatların sənədlərində | s 113 |
| Д. Р. Вагабова | Нагорный Карабах: вчера и сегодня в зеркале азербайджанского плаката | s 137 |
| V.S. Fətəliyev | Qarabağın xrsitian məliklikləri | s 146 |

***Düşmən İşğalından Azad Olan Qarabağ Abidələri Və Onların Bərpası Metodları***

***Bayram Quliyev***

***tarix üzrə fəlsəfə doktoru, AMEA, Elm Tarixi İnstitutu, Elm tarixinin nəzəri və metodoloji problemləri şöbəsinin müdiri***

***bayramqulusoy@yahoo.com***

## GİRİŞ

Tarixi Azərbaycan torpaqları olan Qarabağ təxminən otuz ilə yaxın bir işğal dönəmindən sonra "Dəmir yumruq" əməliyyatı ilə 44 günlük Vətən müharibəsində azad olundu. Bu uğurlu nəticədən sonra otuz il ərzində ermənilərin törətdikləri insani terrorla bərabər, mədəni və bioloji terroru da gün işığına çıxmış oldu. Məqaləni hazırlayarkən Füzuli və Xocavənd rayonlarına səfərimizin gerçəkləşməsi bu barədə daha dəqiq təsəvvürün yaradılması üçün bizə imkan yaratdı. Xocavəndin Edilli və Düdükçü kəndləri, eləcə də Hadrud qəsəbəsində demək olar ki, dağıntıların olmaması ilə Füzuli şəhərinin tamamən yox edilməsi və Axullu daxil olmaqla bir çox kənddə dağıntıların olması ilə ziddiyyət təşkil edirdi. Azıx mağarası daxil olmaqla bir çox abidələr də erməni vəhşiliyinin qurbanı olmuşdu. Getdiyimiz ərazidə deyil ağacların özləri, köklərinin də kəsildiyinin və nəticədə bioloji terrorun gerçəkləşdirildiyinin şahid olmamaq mümkün deyil.

Belə bir durumda Qarabağın bərpası çərçivəsində istər-istəməz mədəni abidələrin də yenidən bərpa olunması yönündə çoxlu sayda ideyalar formalaşmışdır. Bu barədə müxtəlif təkliflər irəli sürülsə də onların bərpa olunması haqqında konkret layihələndirmə və akademik araşdırmalar mövcud deyildir. Hər bir layihələndirmə o zaman sanballı olub reallığı əks elətdirir ki, həmin layihələndirmə elmi əsasa dayansın və akademik araşdırmalardan istifadə etməklə tərtib edilsin. Bunu göz önündə saxlayaraq bu yazının yazılması zərurətini hiss etdik. Araşdırmada Vətən müharibəsi haqqında kiçik bir arayış, dağılmış abidələr, onların təsnifatı məsələsi və onları bərpa etmə metodları haqqında məlumatlar əks olunmuşdur. Araşdırma çağdaş dönəmə aid olduğundan əlimizdəki qaynaqlar əsasən elektron xarakterli materiallardan və müşahidə metodu ilə əldə olunmuş biliklərdən ibarətdir.

### *SAVAŞIN ADINA DAİR "İKİNCİ QARABAĞ SAVAŞI" YOXSA "VƏTƏN SAVAŞI"?*

Qarabağda cərəyan edən qırx dörd günük savaş bitdi lakin, savaşın adını hər kəs bir formada səsləndirməkdədir. Bu qeyri-dəqiqliyin əsas səbəbi tarixçi mütəxəssislərin fikrinin nəzərə alınmaması və bu işə yanaşan qeyri-professional baxışdır. Ötən yüzilliyin 90-cı illərində baş vermiş savaş "Birinci Qarabağ Savaşı" kimi yadda qalmışdı. Oysa, bu savaş haqlı olaraq tarixi

ədəbiyyatda işğal dövrü kimi göstərilmişdir. Həmin müharibəni biri, iki və s. nümrələyərsək ermənilərin işğal faktını bir azca kənara qoymuş olarıq.

İlk baxışdan mövcud savaşı da "İkinci Qarabağ Savaşı" kimi adlandırmaq qulağa xoş gələ bilər. Lakin, bu ümumi vəziyyəti tam ifadə edə bilmir. Birincisi savaş sadəcə Dağlıq Qarabağ ərazisində deyil, işğal altındakı daha yeddi rayonda da gedirdi. Bəhs olunan adı verməklə savaşın məqsədini çərçivəyə salmış oluruq. Çünki, bu savaş Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması uğrunda gedir, Qarabağın ərazi bütövlüyünü bərpası uğrunda deyil. Onu Qarabağ savaşı adlandırmaqla sanki Qarabağ müstəqil imiş kimi təsəvvür yaratmış oluruq. 4 may 1994-cü il Bişkek anlaşmasından 27 sentyabr Vətən müharibəsinin başlandığı tarixə qədər heç savaş olmadımı və əsgərlərimiz öz çalarından keçmədilərmi? ən yaxın tarixdə baş vermiş "Aprel döyüşləri" və ya "Tovuz döyüşləri" adlandırdığımız kimi bu savaşı necə adlandırmalıyıq? Bilinməkdədir ki, bu baş verənlər bir döyüş deyil, kompleks şəkildə gerçəkləşdirilən hərbi savaşdır və 44 günlük müharibə də bu savaşın son mərhələsidir. Unutmaq olmaz ki, Azərbaycanın Qarabağ bölgəsində 1828-ci il ermənilərin Azərbaycan köçürülməsindən 10 noyabr 2020-ci il tarixinə qədər ən azı on savaş baş vermişdir. Buna misal olaraq 1095-1907-ci illərdə baş verən "erməni müsəlman davası" adlandırdığımız proseslər. Hətta onlarla mübarizədə Əhməd bəy Ağaoğlu "Difai" təşkilatını yaratmışdı. Və ya Cümhuriyyət dövründə baş verən Qarabağdakı savaş, yaxud Sovetlər Birliyi qurulduqdan sonra Qarabağdakı hadisələr, 80-ci illərin sonundakı hadisələr Qarabağ savaşı deyilmi?

Vətən müharibəsi zamanı Azərbaycan vətəndaşları Azərbaycanın bütövlüyü uğrunda mübarizə aparırdılar. Ərəb qaynaqlarına da istinad etsək belə sonuc əldə edərik ki, Dərbənddən Həmədan şəhərinə Ağrı dağı və Urmu gölündən Xəzər dənizinə qədər Azərbaycandır və bu geniş ərazi burada doğulan irqindən, cinsindən, dinindən, dilindən, sosial mənsubiyyətindən və kimliyindən asılı olaraq hər kəsin vətənidir. Həmin günlərdə Azərbaycanın şimal hissəsi deyil, hazırkı İran İslam Respublikası ərazisi olan Cənubi Azərbaycandakı soydaşlarımız da çeşidli yollarla ordumuza dəstək oldular. Çünki, Dağlıq Qarabağ və ətraf yeddi rayon onların da vətənidir. Beləcə, baş verən bu savaşı ***"Böyük Vətən Müharibəsi"*** və ya sadəcə ***"Vətən Savaşı"***, yaxud da ***"Qarabağ savaşının sonuncu mərhələsi"*** adlandırmaq ən optimal variantdır (8).

## *İŞĞAL DÖVRÜNDƏ QARABAĞ: GÖRDÜKLƏRİMİZ VƏ GÖRMƏDİKLƏRİMİZ*

Qarabağın işğal altında olduğu zamanda oranın sadəcə təbii sərvətləri və dini-tarixi abidələri talan edilmədi, eləcə də bioloji ehtiyatlarına qarşı terror həyata keçirildi. Füzuli rayonunda olduğumuz zaman demək olar ki, ağaclara rast gəlmədik. Sadəcə kolluqlar və ot örtüyü fonunda dağıdılmış evləri gözləmləmək mümkün idi. Ehtimal etmək olar ki, onlar sadəcə odun ehtiyatının tədarükü və satışı üçün ağacları kəsməmiş, onların kötüyünü də yerdən çıxararaq

istifadə etmişlər. Mənim birbaşa görmədiyim, lakin video və şəkillərdən izlədiyim qədər ilə Cəbrayıl və Ağdam şəhərləri də eyni vəziyyətdədir. Ümumiyyətlə ermənilər Qarabağda üç şəhəri – Cəbrayıl, Füzuli və Ağdamı tamamilə, Zəngilan və Qubadlını isə əksər hissəsini yer üzündən silmişlər. Ermənilərin əbədi yaşayacaqlarına ümid etdikləri Xocavəndin Edilli, Düdükçü kəndləri və Hadrud qəsəbəsində (burada olduğum üçün daha dəqiq gözləmləmə imkanım oldu) buna bənzər durumlarla qarşılaşmadıq. Şuşa şəhərində isə XVIII-XIX yüzilliklərə aid tarixi binalar tamamən dağıdılsa da Sovetlər dönəmində inşa olunmuş yaşayış binaları olduğu kimi qalmaqdadır. Burada belə bir sonuc əldə etmək mümkündür ki, ermənilər azərbaycanlıların yaşadıqları ərazilərdə dağıntılar həyata keçirib, onların mədəniyyətlərini Qarabağdan silmək üçün əllərindən gələni ediblər. Oranı geri qaytaran Azərbaycan əsgəri deyil hansısa flora və ya faunaya, yaxud mədəniyyət abidəsinə zərər vurmaq heç bir yaşayış binasına da toxunmamışlar. Ona görə də dünya ictimaiyyətinin Azərbaycanı və Ermənistanı eyni tərəziyə qoyaraq davranış nümayiş etdirməsi yolverilməzdir.

Qarabağın dini tarixi abidələrinin durumuna gəlincə burada abidələr ya tamamən dağıdılıb, ya qismən dağıdılın və içərisində müxtəlif növ heyvan saxlanılıb (xüsusilə dini abidələrdə), yaxud da abidəyə zərər vurulmağa cəhd olunub, erməniləşdirilmək uçub bərpa işləri aparılıb. Hətta Xudavəng monastırından tarixi freskalar oğurlanaraq İrəvan şəhərinə aparılıb və hərraca çıxardılıb.

Qarabağ ətrafı rayonlardan beşində mövcud olan abidələrin çox tamamilə dağıdılıb. Cəbrayılın özündə mövcud olan beş məsciddən sadəcə biri - Çələbilər məscidi qismən salamat qalıb, digər dörd məscidin isə sadəcə qalıqları qalmaqdadır. Bundan başqa qismən dağıdılan mədəni abidələrimiz də mövcuddur. Bunlar əsasən dini-tarixi abidələrdir və onlar ya təhqir olunmaq üçün və ya heyvanların sığınacağı kimi istifadə olunmaq məqsədi ilə qismən dağıdılıb. Bunlara misal olaraq Ağdam və Şuşa məscidlərini, Cəbrayıldakı Çələbilər məscidini göstərmək olar. Onların içərisində donuz və bir sıra iyi və xırdabuynuzlu mal-qara saxlanıldığına dair izlərə rast gəlinir. (9).

Qarabağda sağlam qalan abidələrin vəziyyəti də ürəkaçan deyil, Bu cür abidələri iki qismə aid etmək olar. Birinci qismə aid edilən abidələr tamamən salamat qalsa da onun müxtəlif yerlərinə onu korlamaq məqsədi ilə zərər yetirilmişdir. Buna misal olaraq yaşı 1 milyon ildən çox olan Azıx mağarasını göstərmək olar. Xocavənddə səfərdə olarkən gördüklərimiz bizi dəhşətə gətirdi. Mağaranın ön girişinə, əsas dəhlizinə və səkkiz dəhlizdən birinə girmək mümkün oldu. Bu zaman divarlarda kobud arxeoloji qazıntıların aparıldığını, içəri qum torbalarının yerləşdirildiyini, ön dəhlizdə metaldan hasar çəkildiyini müşahidə etmək mümkün oldu. Təxminən 700 minillik ocaq izi qalsa da ocaq izinin ətrafındakı daş yığınları ola bilsin ki, burada aparılan qanunsuz arxeoloji

qazıntılar zamanı dağıdılmışdır. 2001-ci ildən etibarən Azıx mağarasında İngiltərə, İspaniya, İrlandiya və Ermənistandan olan beynəlxalq tədqiqatçılar qrupu İspaniyanın Madrid şəhərində yerləşən Təbiət Elmləri Milli Muzeyinin əməkdaşı Yolanda Fernandez-Jalvo və Ermənistan Milli Elmlər Akademiyasının Molekulyar Biologiya İnstitutunun əməkdaşı Levon Yepiskopyanın başçılığı altında "tədqiqat" işlərinin aparılmasına başlanmışdır. Bu "tədqiqatlar" nəticəsində 300 min il yaşı olan Avropada ən qədim mağara ayısının sümüyü və digər maddi mədəniyyət nümunələri Londona aparılıb. Mağaranı işğaldan sonra müşahidə edərkən burada kobud və sərişdəsiz arxeoloji tədqiqatlar aparıldığını gördük. Eyni zamanda mağaranın divarına zərər vurulmuş, qırmızı boya ilə rəqəmlər yazılmışdır. Bu da bəs deyilmiş kimi, erməni əsgərləri və ya bir zamanlar buralarda yaşamış ermənilər divara qırmızı rəngli boya və iri həriflərlə erməni adlarını yazmışdır. Dünyanın dörd qədim yaşayış yerlərindən biri olan abidənin divarlarına bu cür toxunmaq və boyalardan istifadə etmək mədəni cinayətdir. Azıx mağarasının yeni müasir tədqiqatların köməyi ilə arxeoloji araşdırılmaya ehtiyacı vardır (2; 6).

Salamat qalan abidələrin digər bir qismi isə erməniləşdirilmişdir. Bu abidələr əsasən xristian albanlara məxsus kilsə və ya monastırlardır. Qarabağda yüzlərlə bu cür monastır və kilsələr vardır. Lakin, biz öz gözümüzlə gördüyümüz bir fakt əsasında fikir yürütməyi üstün tutmağı zəruri hesab edirik. Olduğumuz Tuğ kəndində bir neçə alban kilsəsi mövcud olmuşdur ki, bunlardan biri də XIII əsrə aid olan Müqəddəs İohann kilsəsidir. Kilsə alban xristian memarlığının demək olar ki, bütün xüsusiyyətlərini daşıyır. Bu memarlıq ənənələrinə görə XIII əsrdən etibarən mövcud köhnə kilsə və monastırların üzərində yeniləri inşa olundu. Bunun əsas səbəbi Moğol yürüşləri və Elxanlı dövlətinin yaradılması idi. Moğolların gəlişi ilə Azərbaycanda İslam təsirləri azaldı və Xristian dini az da olsa yüksəlməyə başladı. Belə bir zamanda ya əski kilsələr və monastırlar üzərində yenisi inşa olundu və ya yeniləri tikildi. Bu zaman kilsə və monastırlar bərkidici əhəng məhlulu ilə kobud yonulmuş çay daşlarından istifadə olunaraq dördbucaqlı formada inşa olunurdu. Bu cür abidələrdə bəzən nal şəkilli apsidaları da rast gəlinir. Bu satdığımız xüsusiyyətlərin hamısı Müqəddəs İohann kilsəsində mövcuddur. Alban memarlığının izlərini aydın hiss olunan kilsədə ehtimal ki, 80-90-cı illərdə ( 2000-ci illər də ola bilər) bərpa etmə işləri aparılıb və zəng qülləsi əlavə edilib. Bu qüllənin materialı və tikilmə üslubu ümumi memarlıqla tərs mütənasibdir. Həmin materialdan kilsənin iç döşəməsini hazırlayarkən də istifadə olunub və bu kilsənin qədim memarlığına yamanmış bir yamaq kimi görsənir (5).

***ABİDƏLƏRİN BƏRPA OLUNMASINA GÖRƏ TƏSNİFATI***

Vətən Müharibəsindən sonra Qarabağda mövcud olan dini, tarixi abidələrin durumu haqqında ilkin təsəvvürlər yaranmağa başladı. Bu təsəvvürlər hal-hazırda daha dəqiq və əhatəli

şəkildədir. Qarabağ abidələri haqqında ümumi təsəvvür yaratmaq və onların erməni təcavüzünə məruz qalma təsnifatını yaratmaq üçün iki metoddan istifadə etdik.

Birinci metod əlimizdə olan ilkin qaynaqların ***müqayisəli təhlili və ümumiləşdirmə metodud***ur. Dövrün əsas ilkin qaynaqların bunlardır: Azərbaycan Respublikası Müdafiə Nazirliyinin foto və videoları, televiziyaların videoları, Azərbaycan xəbər agentliklərinin materialları. Bu qaynaqların demək olar ki, hamısı əsas xarakteri etibarı ilə obyektiv qaynaqlardır. Lakin bu qaynaqlardan istifadə etməklə qismən reallığı əks etdirən məlumatlar əldə etmək olar. Bunun üçün müxtəlif qaynaqlı foto və videonu qarşılıqlı şəkildə müqayisə edib əldə olunan materialları bir yerə toplayaraq ümumiləşdirmə gərəkli olur (1).

Reallığı əks etdirmək üçün ən yaşı metod ***müşahidə metod***udur. Çox təəssüf ki, müharibə sonrası insanların təhlükəsizliyi baxımdan bu metodu geniş tətbiq etmək mümkün deyildir. Həmin torpaqlara mina təhlükəsi ucbatından elm adamlarının getməsi demək olar ki, mümkün deyildir. Minalar təmizləndikdən sonra bu abidələr üzərində müşahidə metodunun daha geniş formada tətbiq olunacağını söyləmək mümkündür.

Qarabağ abidələri ilə bağlı bu məqaləni hazırlayarkən 30 ildən sonra Qarabağa gedən ilk tarixçilərdən biri kimi orada tarixi müşahidələr imkanımızın olması daha obyektiv məlumatlar əsasında formalaşan nəticələr əldə etməmizə səbəb oldu. Çünki, şəkil və videolarda bəzi boşluqlar hələ də qalmaqda idi. Qarabağ abidələrinin erməni vəhşiliyinə qalması və onun izləri bəzən video və fotolara sığmır. Çox təəssüf ki, müşahidə metodunu sadəcə Füzuli və Xocavənd rayonunun mədəni-dini və tarixi abidələrinə tətbiq etmək mümkündür. Digər rayonlarımızla bağlı təsəvvürləri video və foto materiallardan istifadə edərək yaratmağa çalışmışıq və əsasən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytındakı materiallardan ilkin qaynaq kimi istifadə etmişik (1).

Bütün qaynaqları və müşahidə metodu vasitəsi ilə əldə etdiyimiz məlumatları göz önündə saxlayaraq 30 illik işğal dövründə Qarabağda erməni vəhşiliyinə məruz qalan abidələri aşağıdakı kimi təsnif etmək olar:

a) *Tamamən dağıdılmış abidələr* – Azərbaycanın Qarabağ bölgəsində yerləşən bir neçə rayon özünün mədəni abidələri ilə birlikdə tamamən dağıdılmışdır. Bu proses kəndlərdə də icra edilmişdir. Tarixi-dini abidələrin tamamən dağıdılmasında ermənilərin əsasən iki məqsədi olmuşdur. Bunlardan birincisi Azərbaycana məxsus tarixi-dini abidələri yox etmək, ikincisi isə bu torpaqlarda Azərbaycan izlərini silməkdir. Abidələrin içərisində tarix öncəsinə dair qiymətli arxeoloji düşərgələr ilə birlikdə əsasən məscidlər və türbələr yer almaqdadır. Tamamən dağıdılmış abidələrin bərpası demək olar ki, mümkün deyil. Bu cür abidələrin sadəcə prototiplərini yaratmaq mümkündür ki, bu da həmin abidələrin önəmini

əvəz edə bilməz. Onların real prototiplərinin yaradılmasındansa virtual bərpaetmə metodundan istifadə edərək rəqəmsal prototiplərinin yaradılması daha məqsədə uyğundur. Bu cür abidələr əsasən Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Ağdam rayonları ərazisindədir. Eyni zamanda Şuşa şəhərində XIX əsrə aid olan köşklər, Avropa üslubunda inşa edilən binalar da tamamən dağıdılmışdır. Misal üçün Xurşudbanu Natəvanın evinin sadəcə qalıqları qalmaqdadır.

b) *Qismən dağıdılmış abidələr* – Qarabağ abidələri içərisində qismən dağıdılmış abidələr daha çoxdur. Abidələrin qismən dağıdılmasın və ya baxımsız vəziyyətdə olmasının bir neçə səbəbi vardır. Onlardan birincisi abidələrin təhqir olunması üçün saxlanılmasıdır. Bunlara əsasən məscidlər və türbələr daxildir. Şuşadakı Yuxarı Gövhərağa məscidi, Cəbrayıldakı Çələbilər məscidi, Ağdam məscidi, Qubadlıdakı məscidlərin demək olar ki, hamısı eyni məqsədlə istifadə olunurdu. Onlardan öz heyvanlarının tövləsi kimi istifadə olunurdu ki, bu faktı məscidlərin içərilərindən tapılan heyvan artıqlar və peyinləri sübut etməkdədir. İkinci səbəbə gəlincə, ya ermənilər onların əhəmiyyətli abidə olmağının fərqində olmamışlar, ya da abidələrin mövcud olduğu kəndlərdə yaşayış olmamışdır. Bu abidələrə misal olaraq Füzuli rayonu, Qarğabazar karvansarasını, Ağdamın Qızıl Kəngərli kəndindəki türbə və s. Ümumiyyətlə bu tip abidələr baxımsız vəziyyətdədir, ya bir qismi dağılıb, yaxud da dağılmaq üzrədir. Qarabağda yerləşən bu cür abidələr o qədər həssasdır ki, onları bərpa etmək üçün sanki iynənin ucu ilə işləyirmiş kimi davranmaq lazımıdır. İlk öncə arxeoloqlar tərəfindən abidənin vəziyyəti qiymətləndirilir, abidənin tikintisində istifadə olunan materiallar müəyyənləşdirilir. Ardından abidə virtual bərpaetmə metodla ilkin modeli yaradılır, daha sonra onun çatışmayan hissələri real formada ilkin formasına uyğun olaraq bərpa edilir.

c) *Dağıdılmamış abidələr* – Abidələrin bir qismi isə demək olar ki, dağıntıya məruz qalmamışdır. Qarabağda abidələrin erməni dağıntısına məruz qalmamasının bir neçə səbəbi mövcuddur. Bunun ilkin səbəbi abidələrin xristian dini tikililəri olmasıdır. Ermənilər Qarabağda varlıqlarını göstərmək və gəlmə olduqları fikrinin yanlış olduğunu sübut etmək üçün vaxtı ilə alban memarlığına aid olan bu məbəd və monastır kompleksləri üzərində bərpaetmə adı ilə dəyişikliklər aparmış və bura erməni elementləri daxil etmişlər. Buna misal olaraq Kəlbəcərdəki Xudavəng monastırını, Tuğ kəndindəki Müqəddəs İohann kilsəsini və digərlərini misal göstərmək olar. Qarabağdakı alban xristianlığına məxsus olan bu abidlərin demək olar ki, hamısı erməniləşdirmə təsirinə məruz qalmışdır. Bu tip abidələrin erməniləşdirilən hissələri ümumi memarlıq üslubu ilə tərs mütənasiblik təşkil edir ki, ilk öncə bunu müəyyən edib, abidəni bu mədəni terrordan təmizləmək lazımdır. Tamamilə sağlam qalan abidələrin bir qisminin isə müxtəlif hissələrinə zərər vurulmuşdur.

Buna misal olaraq Azıx mağarasını göstərmək olar. Abidənin divarlarında erməni vəhşiliyinin izləri və qanunsuz kobud arxeoloji qazıntıların əlamətləri qalmaqdadır. Bu tip abidələrin zədə almış hissələri mütəxəssislərin iştirakı ilə real bərpaetmə metodu ilə yenidə öncəki vəziyyətinə qaytarıla bilər. Bəzi abidələr isə ya savaşın baş verdiyi ərazidən kənarda qalmış, yaxud da abidənin olduğu yerə erməni köçürülməmişdir ki, bu cür abidələr olduğu kimi gəlib bizə çatmışdır. Bunlar əsasən ocaqlar və pirlərdir. Buna misal olaraq Cəbrayıl rayonu, Qərər kəndindəki piri misal göstərmək olar. Qarabağda abidələr bərpa olunarkən ilk öncə bu tip abidələrin bərpa olunmasından başlanılmalıdır. Üçüncü qrupa daxil olan abidələrin bərpasını arxeoloq və tarixçilərin müşayiəti ilə memarlar həyata keçirilir. Bu olduqca həssas bir prosesdir.

## *REAL VƏ VİRTUAL BƏRPAETMƏ METODUNUN ƏSAS XÜSUSİYYƏTLƏRİ VƏ GERŞƏKLƏŞDİRİLMƏSİ*

Yuxarıda bəhs olunan və ər üç qrupa daxil olan bütün abidələrin bərpa edilməyə ehtiyacı vardır. Lakin bu abidələrinin hər birinin bərpası üçün istifadə olunan metodlar bir birində bir azca fərqlənirlər. Qarabağda erməni təcavüzünə məruz qalmış hər üç qrupa daxil olan abidələrin bərpası üçün əsasən aşağıdakı addımlar atılmalıdır:

a) Abidənin yerləşdiyi əraziyə mütləq arxeoloq, tarixçi, memar, fotoqraf və kompüter mütəxəssisi olmaqla işçi qrupu göndərilməli və lazımlı məlumatlar toplanmalı. Onların iş prinsipləri hər üç qrup abidələr üçün ayrı-ayrıdır və bu haqda irəlidə daha ətraflı məlumat veriləcəkdir.
b) Arxivlərdə və səyahətnamələrdəki şəkillər, eləcə də ilkin yazılı qaynaqlardakı məlumatlar müəyyən edilməli və təhlil olunmalıdır.
c) Abidənin virtual prototipi yaradılmalı
d) Abidənin inşasına və ya əksik yerlərinin bərpa olunmasına başlanılmalıdır.

Qarabağda yerləşmiş və ermənilər tərəfindən tamamən dağıdılmış birinci qrup abidlərin bərpası olduqca çətindir. Onların real formada yenidən prototipinin yaradılmasının önəmli olmaması fikrindəyik. Bunun üçün ***virtual rekanstrukitv metoddan*** istifadə edərək abidənin rəqəmsal prototipinin yaradılması ən doğru seçim olardı. Bu metodu gerçəkləşdirmək üçün ilk addım abidələr haqqında təsəvvür yaradan qaynaqlara müraciət etməkdir. Əgər abidə XIX yüzilliyə və ya XX yüzilliyin əvvəllərinə aiddirsə həmin abidənin arxivlərdə foto şəkilləri mövcuddur. Həmin fotoları müqayisəli formada təhlil edib onun ilkin planını və abidənin quruluşunu müəyyən etmək lazımdır. Əgər abidə orta əsrlərə aiddirsə ilk öncə bu abidə ilə bağlı ilkin qaynaqlar müəyyən edilir. Adətən səyahətnamələrdə tarixi-dini abidələr haqqında müəyyən məlumatlara təsadüf edilir. Bəzən səyahətnamələrdə abidənin rəssam vasitəsi ilə cızılmış rəsmi də

olur ki, bu bərpa etmə işlərini asanlaşdırır. Digər qaynaqlarda çox az hallarda abidənin ölçüləri ilə bağlı məlumatlara rast gəlinir. Əldə olunan məlumatları ayrı-ayrı və birlikdə təhlil edib abidənin bir neçə variantda formasını sözlü formada tərtib etmək lazımdır. Daha sonra abidənin yerləşdiyi bölgəyə bir geoloq göndərilir və bölgənin torpağı, torpağın xarakteri haqqında məlumatlar əldə edilir. Ardından əldə olunan bütün məlumatlar və bütün materiallar ümumiləşdirilir, abidənin sözlü formada tərtib olunan əsas forması, divarlarına tətbiq olunacaq rəng və naxışların eskizləri kompüter qrafik mütəxəssisinə təqdim olunur. Üç ölçülü xüsusi proqramlar mövcuddur ki, onların köməyi ilə abidənin müxtəlif hissələri yaradılır. Daha sonra abidənin hissələri birləşdirilir, müxtəlif təbiilik verən kompüter effektləri ona əlavə edilir. Ən sonunda arxeoloq və tarixçi tərəfindən üç ölçülü abidənin gerçəkliyi təsdiq edilir (3; 7; 10; 12).

İkinci qisim abidələrin bərpası bir az mürəkkəblik təşkil edir. Bu cür abidələrin bərpası üçün ilk öncə abidənin yerləşdiyi əraziyə tarixçi, arxeoloq və memar ezam olunmalı, onlar birlikdə abidənin dağılmış hissəsini və bərpa olunacaq hissələrini müəyyən edəcək rəy hazırlamadır. Ümumiyyətlə bu cür qərarlar verilərkən abidənin tikildiyi material, o dövrkü memarlıq inşa üsulları dəqiqliklə müəyyən edilməlidir. Abidənin ümumi görünüşü haqqında daha dəqiq təsəvvür yaratmaq üçün abidənin şəklinin və ya ilkin qaynaqlarda abidə haqqında ilkin qaynaqlarda məlumatın olub olmaması da müəyyən edilməlidir. Bütün əldə olunan məlumatlar əsasında ilk olaraq abidənin virtual prototipi ardından da bərpa etmə işləri aparılır. Real bərpaetmə metodunun nəzəri hissəsinə gəldikdə əsas diqqət ediləcək məqamlar bunlardır: abidənin ilkin variantına maksimum daha yaxın formada bərpa etmək, bərpaetmədə istifadə olunacaq material abidənin vaxtı ilə inşa olunduğu materiala bənzər olmalıdır, simmetriyaya mütləq əməl olunmalıdır. Real bərpa etmənin praktiki məsələləri adətən memarlıq və inşaat üzrə mütəxəssislər tərəfindən müəyyən edilməlidir.

## *SONUC*

Məlumatları birlikdə və ayrı ayrılıqda müqayisəli təhlil edərək belə nəticəyə gəlmək mümkündür ki, Qarabağda gerçəkləşdirilən erməni vəhşiliyi nəticəsində Azərbaycanın dünya və yerli əhəmiyyətli bir çox abidələri ya dağıdılıb, ya da erməniləşdirilib. İşğal sonrası bu abidələrin bərpası üçün ənənəvi metodlarla yanaşı çağdaş metodlardan da istifadə edilə bilər. Dünyada artıq geniş formada tətbiq olunan virtual və real konstruktiv metodun Azərbaycan elmində də tətbiq olunması olduqca önəmlidir.

## QAYNAQLAR

1. Azərbaycan Respublikası Müdafiə Nazirliyi (rəsmi internet saytı) https://mod.gov.az/az/video-arxiv-047/
2. Azıx mağarasının sirri APA TV. 19.03.2021

https://www.youtube.com/watch?v=ygLF3FWatpE

3. Chen J., Chen C. Foundations of 3D Graphics Programming Using JOGL and Java 3D. London, Springer, 2008, 405 p.
4. Gunn S., Faire L. Research Methods for History. Edinburgh, Edinburgh University Press, 2012, 274 p.
5. Hülakü xanın arvadı, məlik məzarları və erməniləşdirilən alban kilsələri APA TV. 22.03.1986
https://www.youtube.com/watch?v=ATdwwcC4M3o
6. Hüseynov M. Uzaq daş dövrü. Bakı, Renessans-A, 2005, 74 s.
7. Klawonn F. Introduction to Computer Graphics Using Java 2D and 3D. London, Springer, 2008,
8. Quliyev B. Dağlıq Qarabağ: burada nə baş verir? (tarixi-siyasi dəyərləndirmə) / ELM qəzeti. N 16 (1251). Bakı, 9 oktyabr 2020-ci il, s. 7
9. Quliyev B. Qarabağdakı alban abidələrinin erməni abidəsi kimi təqdim edilməsi ərazi bütövlüyümüzə hörmətsizlikdir
https://az.trend.az/azerbaijan/politics/3400590.html?fbclid=IwAR0p1CpfgtIp-e5zLONtTYxX4IPUOPMqIBpMzXuIuK-elKr29E_4PwWn0sc
10. Topolski J. Methodology of history. Warsaw, Pwn - Polısh Scıentıfıc Publıshers, 1976, 690 p.
11. Tosh J. The Pursuit of History Aims, methods and new directions in the study of history. London, Routledge, 2015, 316 p.
12. Williams R. The Historian’s Toolbox A Student’s Guide to the Theory and Craft of History. London, Routledge, 2012, 230 s.